# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

19 (114) 01 noyabr 2018-ci il İctimai-siyasi qəzet


*Veteranların təcrübəsindən biz daim bəhrələnməliyik, istifadə etməliyik. Həm cəbhədə, həm də arxada çalışmış, şücaətlər, əmək fədakarlığı göstərmiş veteranların qəhrəmanlığı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*

*Heydər Əliyev*

## İlham Əliyev Bakıda VI Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində iştirak edib



Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlətimizin başçısı nitq söylədi.

Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa QOLODETS Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxumuş və çıxış etmişdir.

Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Qeyd edək ki, 2010-cu ildən təşkil olunan Forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.

## Prezident İlham Əliyev İsveçrənin dövlət katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın yeni sahələri əhatə etməsindən məmnunluğunu bildirərək qeyd etdi ki, əgər əvvəllər iqtisadi əlaqələr enerji, investisiya, tikinti materialları sahələrində inkişaf edirdisə, hazırda tərəflər əməkdaşlıq istiqamətlərinin şaxələndirilməsində maraqlıdırlar.

İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammanın ölkəmizə builki səfərinin uğurla keçdiyini vurğulayan Prezident



İlham Əliyev Mauro Dell'Ambrogionun Azərbaycana bu səfərinin də əlaqələrimizin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Təhsil, innovasiya istiqamətlərinin ölkəmiz üçün prioritet təşkil etdiyini deyən Prezident İlham Əliyev bu baxımdan dünən Şəki şəhərində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 15-ci mərkəzinin açılışında iştirak etməsini məmnunluqla qeyd etdi.

İsveçrənin texnologiyalar sahəsində çox yaxşı təcrübə qazandığını vurğulayan Prezident İlham Əliyev bu sahədə də əlaqələrimizin inkişafı üçün yaxşı imkanların olduğunu dedi.

İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogio ölkəmizdə keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verərək Təhsil Nazirliyində ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığa dair Saziş imzaladıqlarını və ADA Universitetində olduqlarını məmnunluqla qeyd etdi. O, bu səfəri çərçivəsində Azərbaycan-Fransız Universitetində (UFAZ) mühazirəsi zamanı da elm və təhsil sahələrinin inkişafının və bu sahədə əməkdaşlığın önəmi barədə danışdığını dedi. Turizm sahəsində əməkdaşlığa toxunan Mauro Dell'Ambrogio İsveçrə Turizm Təşkilatı ilə Azərbaycan Turizm Agentliyi arasında imzalanan Sazişin mühüm əhəmiyyət daşıdığını vurğuladı, bu sahədə əməkdaşlığın genişləndirilməsində ölkələrimiz arasında birbaşa aviareyslərin açılmasının önəmini qeyd etdi.

Görüşdə iqtisadiyyat, turizm, təhsil, o cümlədən peşə təhsili sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.


Bakıda Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illiyi münasibətilə beynəlxalq konfrans keçirilib — Səh-4

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Respublika Veteranları Təşkilatının 30 illik yubileyinə dəvət olunmuş nümayəndə heyəti ilə görüş olub — Səh-7

Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi — Səh-10

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətinin əsasında Azərbaycan dövlətinin yüksək diqqət və qayğısı dayanır

## Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illik yubileyi qeyd olunub

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı fəaliyyət göstərdiyi 30 il ərzində ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib və bu gün də yüksək fəallığı ilə seçilən aparıcı ictimai qurumlardan biridir. Hazırda sıralarında müharibə, əmək, Silahlı Qüvvələr və hüquq-mühafizə orqanları veteranları olmaqla, bir milyondan çox üzvü birləşdirən



Təşkilatın yubileyinin qeyd edilməsi böyük əhəmiyyət daşıyır. Qurum vətənpərvərlik tərbiyəsini, eləcə də azərbaycançılıq məfkurəsini gənc nəsil arasında təbliğ edir, ölkəmizin ərazi bütövlüyünün təmin olunması, erməni faşizminin ifşası, eləcə də dünyada sülhün və əmin-amanlığın qorunub saxlanılmasına töhfələr verir.

Bu fikirlər Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illik yubileyi münasibətilə oktyabrın 16-da Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində keçirilən tədbirdə səslənib.

Yubiley tədbirində dövlət və



hökumət rəsmiləri, Milli Məclisin deputatları, Böyük Vətən müharibəsi veteranı, Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov, təşkilatın üzvləri, ictimai qurumların təmsilçiləri və gənclərlə yanaşı, müxtəlif ölkələrin veteran qurumlarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların, İkinci Dünya müharibəsində həlak olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın dövlət himni səsləndirilib.

Sonra Binəqədi rayonundakı 83 nömrəli məktəb-liseyin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bu qurumun yaradılmasının 30 illik yubileyi münasibətilə İkinci Dünya, Əfqanıstan, Qarabağ müharibələrində qəhrəmanlıq nümayiş etdirmiş, Vətənə canı bahasına xidmət etmiş veteranları təşkilatın sədri, general-polkovnik Tofiq Ağahüseynov adından təbrik edib.

Ölkəmizdə veteran hərəkatının yaranması və təşkilatın fəaliyyəti haqqında danışan Cəlil Xəlilov qeyd edib ki, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin qazanılmasına böyük töhfələr vermiş veteranlara Azərbaycanda ən yüksək diqqət və qayğının göstərilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin respublikaya rəhbərliyinin birinci dövründə veteranlar təşkilatının fəaliyyətində canlanma yaranıb və bu hərəkat bütün ölkəni əhatə edib. Dahi şəxsiyyətin Vətən, xalq qarşısında xidmətləri olan insanlara qayğıkeş münasibəti, bütün rayon və şəhərlərdə veteran təşkilatlarının yaranmasına göstərdiyi kömək hərəkatın yüksəlişində başlıca rol oynayıb.

Diqqətə çatdırılıb ki, 1987-ci ildə təsis olunan Respublika Veteranlar Təşkilatına həmin vaxt general-mayor Mustafa Nəsirov sədrlik edirdi. Ancaq 1990-cı illərin əvvəllərində ölkədə yaşanan hərc-mərclik Respublika Veteranlar Təşkilatının fəaliyyətinə də mənfi təsir göstərib. Məhz ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyəti bərpa olunub, 9 May – Qələbə Günü yenidən dövlət bayramları sırasına daxil edilib, müharibə iştirakçılarının və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılıb.



Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı “Veteranlar haqqında” Qanunda bu diqqət və qayğının hüquqi əsasları müəyyənləşdirilib. Onun veteranlara qayğı siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, veteranlara dövlət qayğısı yeni səviyyəyə qaldırılıb. Bu qayğının ən son nümunəsi kimi Respublika Veteranlar Təşkilatına ayrılan inzibati binanı, müntəzəm imzalanan sərəncamlar əsasında 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, faşizm üzərində Qələbə münasibətilə ayrılan birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildən-ilə artırılmasını, veteranların və müharibə əlillərinin mənzil və avtomobillə təmin edilməsini, onlara Prezident təqaüdünün verilməsini və digər məsələləri qeyd etmək olar.

Veteranların sosial müdafiəsinin təminində bütün dövlət orqanlarının köməyini yüksək qiymətləndirən, Prezidentin qayğısını xüsusi qeyd edən C.Xəlilov, səmərəli fəaliyyətin təşkilində göstərilən dəstəyə görə veteranlar adından Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib. Vurğulanıb ki, Respublika Veteranlar Təşkilatının fəaliyyətinin səmərəli qurulmasında Prezident İlham Əliyevin rəhbərliyi ilə veteranlara göstərilən diqqət və qayğı mühüm rol oynayır. Prezident İlham Əliyevin veteranlara hərtərəfli qayğı siyasətinin başlıca məqsədi vətənpərvər insanların xidmətlərinin qiymətləndirilməsi, cəmiyyətdəki mövqelərinin, sosial müdafiəsinin gücləndirilməsidir. Veteranlar bu qayğını daim yüksək qiymətləndirir, buna əməli işləri, ölkənin ictimai-siyasi həyatında yaxından iştirakları ilə cavab verməyə çalışırlar. Yaradılmış şəraitə görə dövlətimizin başçısına daim minnətdar olan veteranlar Prezidentimizin daxili və xarici siyasətini fəal dəstəkləyirlər.



C.Xəlilov Respublika Veteranlar Təşkilatının hazırda gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların dövlətimizə və xalqımıza sədaqət ruhunda yetişmələri istiqamətində ardıcıl və səmərəli fəaliyyətindən, veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində görülən işlərdən, qurumun xarici ölkələrin müvafiq təşkilatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən, mətbuatda aparılan təbliğat işlərindən danışıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Tahir Süleymanov əlamətdar hadisə münasibətilə dost ölkələrdən gəlmiş veteran təşkilatlarının rəhbərlərini salamlayıb, Respublika Veteranlar Təşkilatının üzvlərini, veteranları yubiley münasibətilə təbrik edib. T.Süleymanov bildirib ki, Respublika Veteranlar Təşkilatının Azərbaycan cəmiyyətinin həyatında müstəsna yeri və rolu var. Bu müstəsnalıq ondan irəli gəlir ki, təşkilatın sıralarında Azərbaycanın ən layiqli nümayəndələri, o cümlədən İkinci Dünya, Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçıları, Silahlı Qüvvələr və əmək veteranları birləşiblər. Veteranların keçdiyi döyüş və həyat yolu hər bir azərbaycanlı, xüsusən də gənclər üçün örnəkdir. Müxtəlif təşkilatlar gənclərlə görüş keçirdiyində veteranlarımızı dəvət edirlər, onlardan öz şərəfli həyat yollarından danışmalarını istəyirlər. Təsadüfi deyil ki, bugünkü tədbirdə veteranlarla yanaşı, çoxlu sayda gənc də iştirak edir.





Tahir Süleymanov qeyd edib ki, Respublika Veteranlar Təşkilatının əsas vəzifələrindən biri veteranlara qayğı göstərilməsi, onların sosial hüquqlarının təmin olunması istiqamətində fəaliyyət göstərməkdir. Qurum bu istiqamətdə dövlət orqanları ilə səmərəli əməkdaşlıq edir. Azərbaycanda veteranlara göstərilən dövlət qayğısından danışan Prezident Administrasiyasının şöbə müdirinin müavini bildirib: "Ümummilli lider Heydər Əliyev veteranlara daim yüksək diqqət və qayğı göstərirdi. Məhz Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycanda "Veteranlar haqqında" Qanun qəbul edilib, veteranlarla iş dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Dövlət tərəfindən müharibə əlillərinə, şəhid ailələrinə, veteranlara evlərin, mənzillərin, minik avtomobillərinin paylanılmasına başlanılıb. Bu siyasəti davam etdirən Prezident İlham Əliyev 2015-ci ildə Respublika Veteranlar Təşkilatının yeni inzibati binasının açılışında iştirak edib. Respublika Veteranları Təşkilatına hər il dövlət büdcəsindən birbaşa maliyyə yardımları ayrılır. Dövlət tərəfindən veteranlara, Respublika Veteranları Təşkilatına qayğı göstərilir. Bu diqqət və qayğı gələcəkdə də yüksələn xətlə davam edəcək".



Yubiley münasibətilə təşkilatın rəhbərliyini və bütün üzvlərini bir daha təbrik edən Tahir Süleymanov gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi işində onlara uğur, əzm və fədakarlıq arzulayıb.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov veteranları təbrik edib, onlara cansağlığı və uğurlar arzulayıb. Veteranların Azərbaycanın müstəqilliyinin qorunmasında və möhkəmlənməsində, ölkəmizin inkişafında əsl vətənpərvərlik nümunəsi göstərdiklərini, Prezidentin həyata keçirdiyi siyasəti tam dəstəklədiklərini vurğulayan Siyavuş Novruzov onların gənc nəsillərə örnək olduğunu deyib. Bildirib ki, veteranlardan ilham və tövsiyə alan gənclərimiz Vətən uğrunda canlarından da keçməyə hazırdırlar. Aprel döyüşləri bunun bariz nümunəsidir.




Siyavuş Novruzov qeyd edib ki, Böyük Vətən müharibəsində 700 minədək azərbaycanlı iştirak edib. Qarabağ döyüşlərində Azərbaycan əsgərləri həmişə rəşadətlə vuruşublar. Veteranlar onlara daim nümunə olub, təcrübələrini cəbhə bölgəsində əsgərlərlə bölüşüblər. Odur ki, biz veteranlarımızı daim qorumalı, onların sosial təminatını diqqət mərkəzində saxlamalıyıq. Bu gün veteranlarımıza Azərbaycan dövləti tərəfindən ən yüksək diqqət və qayğı göstərilir. Bu qayğının banisi xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu Öndərimizin hakimiyyətə qayıdışından sonra veteranların hüquqları bərpa olunub və sosial müdafiəsi təmin edilib. Bu gün Prezident İlham Əliyev veteranlara qayğı göstərilməsini daim diqqət mərkəzində saxlayır. İlham Əliyevin prezident seçildiyi 15 il ərzində veteranlarımız dövlətin tam qayğısı ilə əhatə olunub.

Müdafiə Nazirliyinin Mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aydın Əyyubov nazirliyin rəhbərliyi və kollektivi, Ordumuzun şəxsi heyəti adından Respublika Veteranlar Təşkilatının bütün üzvlərini yubiley münasibətilə təbrik edib. O, bildirib ki, təşkilat ordumuzun şəxsi heyətinin döyüş və mənəvi ruhunun yüksəldilməsində, xalqımızın qəhrəmanlıq ənənələrinin gənclərə çatdırılmasında böyük işlər görürlər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev gənclər və idman naziri Azad Rəhimovun, Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini, general-mayor İlqar Musayev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyevin yubiley münasibətilə veteranlara təbrik məktublarını oxuyublar.

Tədbirdə iştirak edən qonaqlar - Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov, Müstəqil Dövlətlərin Veteran İctimai Təşkilatları Beynəlxalq İttifaqının sədr müavini Vladimir Tkaçenko, Rusiya Veteranlar Təşkilatının sədr müavini Aleksandr Kravçuk, Ukrayna Veteranlar Təşkilatının sədri Viktor Şmakov, Qazaxıstan Veteranlar İctimai Birliyinin sədr müavini Aytkali İsenqulov, Belarus Veteranları İctimai Birliyinin sədri İvan Qordeyçuk, Gürcüstan Müharibə və Silahlı Qüvvələr Mərkəzi Veteranlar Təşkilatının sədri Tengiz Şubladze və başqaları çıxışlarında Azərbaycan Respublikası Veteranlar Təşkilatı ilə səmərəli əməkdaşlıq əlaqələrindən, ölkəmizdə veteranlara göstərilən dövlət qayğısından danışıb, yubiley münasibətilə səmimi təbriklərini çatdırıblar.

Yubiley tədbiri bədii hissə ilə davam edib.

AZƏRBAYCAN VETERANI

# Bakıda Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illiyi münasibətilə beynəlxalq konfrans keçirilib

***Oktyabrın 17-də Bakıda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illiyinə həsr olunmuş “Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar” mövzusunda beynəlxalq konfrans keçirilib.***



AZƏRTAC xəbər verir ki, tədbirdə Dünya Veteranları Federasiyasının sədri Dan-Viqqo Berqtun (Norveç), Azərbaycan, Rusiya, Qazaxıstan, Belarus, Ukrayna, Gürcüstan, Bolqarıstan və digər ölkələrin veteran təşkilatlarının rəhbərləri, “Qələbənin Varisləri” Beynəlxalq İttifaqının üzvü olan ölkələrin nümayəndələri, veteranlar və ictimai xadimlər iştirak ediblər.



Konfransın əsas məqsədi dünyada sülhün bərqərar edilməsinə töhfə vermək, ölkəmizin tolerantlıq ənənələrini təbliğ etmək, Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri, erməni faşizminin mahiyyətini dünya ictimaiyyətinə çatdırmaqdır. Dünyanın 23 ölkəsindən gəlmiş qonaqların iştirakı ilə keçirilən konfransda qlobal və regional təhlükəsizlik məsələləri, habelə İkinci Dünya müharibəsi illərində faşizm üzərində Böyük Qələbənin tarixi və mədəni irsinin əbədiləşdirilməsinə və qorunub saxlanılmasına dair tədbirlər müzakirə edilib.



Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov qeyd edib ki, veteranlar hər bir dövlətin qızıl fondu, cəmiyyətdə mənəvi və əxlaqi dəyərləri müəyyən edən təməldir. O xatırladıb ki, SSRİ parçalananda respublikamız ermənilərin beynəlxalq səviyyədə xainliyinin qurbanı olub, Qarabağ münaqişəsinə cəlb olunub. Bu münaqişə Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasına gətirib çıxarıb. T.Ağahüseynov bildirib ki, o dövrdə Azərbaycanda nizami ordu olmayıb, ölkədə siyasi qeyri-sabitlik hökm sürüb. Münaqişə nəticəsində 10 mindən çox adam həlak olub, dəhşətli Xocalı soyqırımı törədilib, bir milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib. Veteranlar təşkilatının sədri deyib: “Azərbaycan xalqı tarixdə müdrik və səbrli xalq kimi ad qazanıb. Biz artıq 25 ildir Qarabağ məsələsinin sülh yolu ilə ədalətli həllinə ümid bəsləyirik. Amma səbr kasasının da daşma həddi var. Hesab edirəm ki, əzəli ərazilərimizi hərbi yolla geri qaytarmaq hüququnu özümüzdə saxlayırıq. 2016-cı ilin aprel hadisələri Azərbaycan ordusunun nəyə qadir olduğunu düşmənlərimizə aydın şəkildə göstərdi”.

Dünya Veteranları Federasiyasının prezidenti Dan-Viqqo Berqtun çıxışında xatırladıb ki, İkinci Dünya müharibəsi iştirakçılarının və şahidlərinin getdikcə azaldığı müasir dövrümüzdə biz tarixi yenidən yazmaq, əsgər və zabitlərin qəhrəmanlığını kiçiltmək cəhdlərinə yol verməmək üçün həmin müharibənin xatirəsini daha böyük qayğı ilə qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.



Sonra konfransda tematik məruzələr dinlənildi.

Müstəqil Dövlətlərin Veteranlar İctimai Təşkilatları Beynəlxalq İttifaqının Əlaqələndirmə Şurası sədrinin müavini Vladimir Tkaçenko bildirib ki, konfransın mötəbər tərkibi göstərir ki, mövzunun aktuallığı təkcə Azərbaycanda deyil, Birliyin digər ölkələrində də müxtəlif kateqoriyalardan olan vətəndaşlar tərəfindən maraqla qarşılanır. Onun sözlərinə görə, müasir dünyada təhlükəsizlik problemi beynəlxalq miqyasda baş verən dərin dəyişikliklərin doğurduğu qlobal çağırışlarla sıx bağlıdır. Vladimir Tkaçenko vurğulayıb: “Yaxın Şərq ölkələrindən milyonlarla qaçqının Avropa ölkələrinə çox böyük axını bu ölkələrin iqtisadiyyatında ciddi dəyişikliklər yaradıb. İqtisadi, siyasi və hərbi problemlərin sıx əlaqədar olması ideoloji amilin rolunun artmasına gətirib çıxarır. Yaranmış şəraitdə MDB ölkələri arasında iqtisadi, siyasi və hərbi sahələrdə sıx əməkdaşlıq, xalqlarımız arasında tarixi dostluğun möhkəmlənməsi mühüm rol oynayır. Vaxtı çatmış problemlərin MDB ölkələri rəhbərlərinin birgə zirvə görüşlərində, habelə prezidentlərin və hökumət başçılarının şəxsi görüşləri zamanı müzakirə olunması ölkələrimizin xalqları arasında əlaqələrin daha da möhkəmlənməsinə kömək edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında bu ilin sentyabrında baş tutan görüşün yekunları da bunu təsdiq edir. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının artıq 30 il üzvü olduğu “Müstəqil Dövlətlərin Veteranlar İctimai Təşkilatları Beynəlxalq İttifaqı” da bu əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayır. Sevindirici haldır ki, Azərbaycanda veteranlara xüsusi diqqət yetirilir. Respublika rəhbərliyinin veteran təşkilatlarına daim diqqət və qayğı göstərdiyini qeyd etməmək olmaz. Azərbaycan Respublikasının Prezidenti Böyük Vətən müharibəsi iştirakçılarının və onlara bərabər tutulan şəxslərin pensiya müavinətləri ilə təmin olunması üçün çoxlu sayda Sərəncam imzalayıb. Əlaqələndirmə Şurası respublika veteranlarına bu şəkildə dəstək göstərilməsi barədə Birlik ölkələrinin veteran təşkilatlarını məlumatlandırır və onlara gündəlik fəaliyyətlərində həmin təcrübədən istifadə etməyi tövsiyə edir”.



Ukrayna Veteranlar Təşkilatının sədri Viktor Şmakov “Azərbaycan və Ukrayna veteranları dostluğu” mövzusunda məruzəsində sülh uğrunda mübarizədə veteran təşkilatlarının rolunu qeyd edərək deyib: “Biz Ukrayna əhalisinin təqribən dörddə bir hissəsini birləşdirən veteran təşkilatımızın qarşısında duran çoxsaylı vəzifə və istiqamətləri müəyyən edirik. Müharibənin nə demək olduğunu öz təcrübəsindən çox yaxşı bilən veteranlar uşaqlarının, nəvələrinin və nəticələrinin bu dəhşəti bir daha yaşamaması üçün mümkün olan hər şeyi edəcəklər. Bir tarixi faktı qeyd etmək istəyirəm. Böyük Vətən müharibəsi illərində Ukrayna ərazisi keçmiş Sovet İttifaqının bütün respublikalarından olan milyonlarla vətəndaşın qəhrəmancasına həlak olduğu bir böyük döyüş və şöhrət meydanına çevrilib. Bu gün Xarkovun, Odessanın, Nikolayevin və Herson vilayətinin azad edilməsində Azərbaycan diviziyalarının rolunu qeyd etməyə bilmərəm”.



Milli Aviasiya Akademiyasının hüquqşünaslıq kafedrasının müdiri İbrahim Quliyev vurğulayıb ki, bu konfrans MDB ölkələrinin veteran təşkilatlarının dünyada, o cümlədən regionumuzda sabitliyin hökm sürməsində nə qədər maraqlı olduğunu göstərir. Onun sözlərinə görə, təcrübə mübadiləsi, elmi inteqrasiya olmadan regionda təhlükəsizliyi təmin etmək mümkün deyil və buna yalnız birlikdə nail ola bilərik. Sülhü məhz bu regionda yaşayan bütün xalqların səyi ilə bərqərar etmək olar. Beynəlxalq ictimaiyyət Ermənistandan birmənalı şəkildə tələb edir ki, öz silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarsın. Bu tələb BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində və digər beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb. Ancaq Ermənistan təcavüz nəticəsində yaranmış status-kvo vəziyyətini hər vasitə ilə saxlamağa çalışır. Əgər dünyadakı erməni diasporu həqiqətən öz həmvətənlərinin taleyini düşünürsə, başa düşməlidir ki, Ermənistanın gələcəyi, onun sivil yolla inkişafı qonşu ölkələrlə mehriban qonşuluq münasibətlərinə əməl olunmasını tələb edir.



Azərbaycan Qarabağın erməni əhalisinin maraqlarını qorumağa hazırdır, onların muxtar qurum kimi yaşamasına və ən yüksək səviyyədə inkişaf etməsinə zəmanət verir.

Tanınmış politoloq, hüquqşünas alim, professor Oleq Kuznetsov “Ermənistanda nasizmin qəhrəmanlaşdırılması – müasir dünya nizamı prinsiplərinin yenidən nəzərdən keçirilməsi” mövzusunda məruzəsində qeyd edib ki, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin arxivlərində işləyəndə İkinci Dünya müharibəsinə aid faktlara rast gəlib. Bu faktlar əsasında əminliklə demək olar ki, o dövrdə daşnaklar hərbi əsir düşərgələrində saxlanılan insanlara işgəncələr verilməsində, habelə sovet ordusuna qarşı hərbi əməliyyatlarda xüsusi qəddarlıqla iştirak ediblər. BMT Baş Məclisi 2014-cü il dekabrın 18-də “Nasizmin qəhrəmanlaşdırılmasına, neonasizmə və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və bu hallarla bağlı dözümsüzlüyün müasir formalarının eskalasiyasına şərait yaradan digər praktika növlərinə qarşı mübarizə haqqında” Qətnamə qəbul edib. O.Kuznetsov vurğulayıb ki, hərbçilərin hərbi əməliyyatlarda qazanc naminə iştirak edən cinayətkarlardan fərqləndirilməsi əsasən hərbçilərdən və bir vaxtlar çiynində paqon gəzdirən kəslərdən asılıdır. O.Kuznetsov fikrini bu sözlərlə tamamlayıb: “Biz başa düşməliyik ki, tam bir sıra ölkələrdə cinayətkarlar siyasi ambisiyalar naminə milli qəhrəmanlar kimi təqdim edilir. Bu, ilk növbədə, Njde ləqəbli Qaregin Ter-Arutyunyanın Ermənistanda dövlət səviyyəsində qəhrəmanlaşdırılması ilə bağlıdır”.



Respublika Veteranlar Təşkilatı sədrinin müavini, ehtiyatda olan polkovnik, siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov “Vətənpərvərlik ölkənin təhlükəsizliyinin təməlidir” mövzusunda məruzə ilə çıxış edərək vurğulayıb ki, vətənpərvərlik xalqın tarixi yaddaşının əksidir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti və hökuməti, respublikamızın vətəndaş cəmiyyəti təsisatları tərbiyə, təhsil, informasiya siyasəti sistemində, ictimai şüurun müxtəlif sahələrində vətənpərvərlik ideyalarının düşünülmüş şəkildə əks etdirilməsi istiqamətində yorulmadan irimiqyaslı iş aparırlar.

Tədbirdə fəlsəfə elmləri doktoru, Rusiya Federasiyasının Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının professoru Nizami Məmmədovun, Rusiya Veteranlar İttifaqı Komitəsi Aparatının rəhbəri, general-leytenant Aleksandr Kravçukun, Gürcüstan Müharibə və Hərbi Qüvvələr Veteranları Mərkəzi İttifaqının sədri Tengiz Şubladzenin, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin elmi əməkdaşı, fəlsəfə elmləri doktoru Nəcibə Mustafayevanın da məruzələri dinlənilib.

Beynəlxalq konfransa Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov yekun vurub.

AZƏRBAYCAN VETERANI

# Cəlil Xəlilov: Beynəlxalq konfransda əsas məqsəd Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır



“Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar” mövzusunda beynəlxalq konfransda 20-dən çox ölkənin veteranlar təşkilatlarının rəhbərləri, Dünya Veteranlar Federasiyasının prezidenti Dan-Viqqo Berqtun iştirak edir. Konfransda beynəlxalq təhlükələrə qarşı mübarizə mövzusu müzakirə olunur. Tədbirdə Azərbaycanın üzləşdiyi erməni faşizmi təhlükəsinə qarşı mübarizə yollarını müəyyənləşdirir, beynəlxalq təşkilatları Azərbaycan həqiqətləri barədə məlumatlandırırıq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun yaradılmasının 30 illiyinə həsr olunan “Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar” mövzusunda beynəlxalq konfransla bağlı jurnalistlərə müsahibəsində deyib.

C.Xəlilov deyib ki, Ermənistan beynəlxalq təşkilatların çağırışlarına, qəbul etdikləri qərar və qətnamələrinə məhəl qoymadan Azərbaycan Respublikasının ərazilərinin 20 faizini işğal altında saxlayır. Biz bu tədbiri keçirməklə həm də beynəlxalq təşkilatları bu barədə məlumatlandırırıq. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırılmasına kömək etmələri üçün onların imkanlarından istifadə edirik. Beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Ermənistana təzyiq göstərməsinə kömək göstərilməsini istəyirik. Konfransın sonunda bu məsələ ilə bağlı beynəlxalq təşkilatlara müraciət qəbul ediləcək.

# Dan-Viqqo Berqtun: Azərbaycan dövləti veteranlara yüksək diqqət və qayğı göstərir



Bakıya səfər etməkdən və burada beynəlxalq konfransda iştirak etməkdən qürur hissi keçirirəm. 1987-ci ildə ölkənizdə veteranlar təşkilatının yaradılması çox önəmli hadisədir. Mən 30 illik yubiley münasibətilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının rəhbərliyini və üzvlərini təbrik edirəm.

Bu fikirləri “Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar” mövzusunda beynəlxalq konfransda iştirak edən Dünya Veteranlar Federasiyasının sədri Dan-Viqqo Berqtun AZƏRTAC-a müsahibəsində söyləyib.

Paytaxtımızda keçirilən konfransın terrorçuluğa qarşı mübarizəyə, beynəlxalq sülhün təminatına töhfə verəcəyinə inandığını bildirən Dan-Viqqo Berqtun deyib ki, İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbədə və hazırda sülhün qorunmasında xalqlar birliyi tarixi rol oynayıb. Azərbaycan xalqı da İkinci Dünya müharibəsində Qələbənin qazanılmasına böyük töhfələr verib. Biz beynəlxalq veteranlar təşkilatları olaraq, bu tarixi birlikdə qeyd edirik. Belə tədbirlərin yalnız regional miqyasda deyil, bütün Avropa ölkələrinin veteranlarının iştirakı ilə daha yüksək səviyyədə keçirilməsini arzulayırıq.

Veteranlar yaşayan tarixdirlər. Odur ki, biz veteranları qorumalı və onlara qayğı göstərməliyik. Veteranlar İkinci Dünya müharibəsində misilsiz rəşadətlər göstəriblər. Bu tarixi keçmişimizi gənclərimizə çatdırmalıyıq. Azərbaycanda veteranlara dövlətiniz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Bu diqqət ildən-ilə daha da artır.

# Vladimir Tkaçenko: Azərbaycanda ölkə rəhbərliyi tərəfindən veteranlar üçün hər cür şərait yaradılıb



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illik yubileyi münasibətilə bütün veteranları ürəkdən təbrik edirəm. Bu gün təkcə Azərbaycan üçün deyil, bütün postsovet ölkələri üçün əlamətdardır.

AZƏRTAC xəbər verir ki, bunu Müstəqil Dövlətlərin Veteran İctimai Təşkilatları Beynəlxalq İttifaqının sədr müavini Vladimir Tkaçenko jurnalistlərə açıqlamasında bildirib.

V.Tkaçenko bildirib ki, bu gün veteranların üzərinə böyük məsuliyyət düşür. Onlar yaşadıqları tarixi və keçdikləri döyüş yolu haqqında gənc nəslə məlumat verməlidirlər.

“Azərbaycanda veteranlara göstərilən diqqət və qayğı siyasəti MDB-nin digər ölkələrində də həyata keçirilməlidir. Azərbaycanda ölkə rəhbərliyi tərəfindən İkinci Dünya müharibəsi veteranlarına hər cür şərait yaradılıb. Ölkənizdə veteranlara göstərilən bu diqqət və qayğıdan mənzərədən çox məmnun oldum”, - deyə V.Tkaçenko vurğulayıb.

# Aytkali İsenqulov: Azərbaycanda veteranlara göstərilən diqqət MDB və türkdilli ölkələr üçün nümunə olmalıdır

***Aytkali İsenqulov: Azərbaycanda veteranlara göstərilən diqqət MDB və türkdilli ölkələr üçün nümunə olmalıdır***

Azərbaycan Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illik yubileyi münasibətilə veteran həmkarlarımızı təbrik edirəm. Bu gün möhtəşəm yubiley tədbirinin təşkili və veteranların ümumi vəziyyəti Azərbaycan Prezidenti İlham Əliyevin yaşlı nəslə yüksək diqqət və qayğı göstərməsindən xəbər verir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Qazaxıstan Veteranlar İctimai Birliyinin sədr müavini, ehtiyatda olan general Aytkali İsenqulov oktyabrın 16-da jurnalistlərə müsahibəsində deyib.

A.İsenqulov bildirib ki, Azərbaycan dövlət səviyyəsində veteranlara göstərilən diqqət bütün MDB və türk dilli ölkələr üçün gözəl nümunə olmalıdır. Hər kəs görməlidir ki, Azərbaycan xalqı və dövləti qəhrəmanlarına, yaşlı nəslə necə dəyər verir. Bu, ondan xəbər verir ki, Azərbaycan xalqı öz keçmişini, tarixini çox sevir və bilir. Bu səbəbdən Azərbaycan xalqını böyük inkişaf yolu gözləyir.



# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Respublika Veteranları Təşkilatının 30 illik yubileyinə dəvət olunmuş nümayəndə heyəti ilə görüş olub





Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illik yubiley tədbirində iştirak etmək üçün xarici ölkələrdən (Rusiya, Gürcüstan, Qazaxıstan, Belarus, Qırğızıstan, Ukrayna, Norveç) Azərbaycana gəlmiş nümayəndə heyəti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüş olub. Görüşdə təşkilatın sədr müavini polkovnik Cəlil Xəlilov da iştirak edib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illik yubileyi münasibəti ilə təşkilatın rəhbərliyini və ölkə veteranlarını təbrik edib. Nazir alman faşizmi üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının göstərdiyi mühüm xidmətləri diqqətə çatdırıb. O, Azərbaycanda müharibə veteranlarına yüksək dövlət qayğısı göstərilməsi tədbirlərinə ümummilli liderimiz Heydər Əliyev tərəfindən başlandığını, İkinci Dünya müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial siyasətinin prioritetlərindən olduğunu vurğulayıb.

S.Babayev bildirib ki, nazirliyin xətti ilə bu vaxta qədər 102 nəfər İkinci Dünya müharibəsi əlili mənzillə, bu kateqoriyadan olan 1118 nəfər şəxs minik avtomobili ilə təmin edilib. İkinci Dünya müharibəsi iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ödənilir. Onların pensiya təminatı daim gücləndirilir, hazırda onların orta aylıq pensiya məbləği 400 manata yaxındır. Hər il 9 May - Qələbə günü ərəfəsində Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş insanlara birdəfəlik maddi yardım verilir. Həmin yardımların məbləği 25 faiz artırılaraq müvafiq olaraq 800 manatdan 1000 manata və 400 manatdan 500 manata çatdırılıb.

Nazir müharibə veteranlarının sanatoriya-kurort müalicəsinin təşkili, əlilliyi olanların reabilitasiya məmulatları ilə təmin edilməsi, tənha ahılların sosial xidmətlə təminatı, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlığını itirmiş şəxslərin, 20 Yanvar və Çernobıl əlillərinin sosial müdafiəsi və reabilitasiyası sahəsində aparılan işləri qeyd edib. S.Babayev həmçinin şəhid hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsi, onların birdəfəlik ödəmə (11000 manat) ilə təmin olunması sahəsində görülən tədbirlər barədə məlumat verib.



C.Xəlilov Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyətindən və nazirliklə qarşılıqlı əməkdaşlıqdan bəhs edib, birgə tədbirlərin önəmini diqqətə çatdırıb.

Dünya Veteranları Federasiyasının prezidenti Dan Viqqo Berqtun, Rusiya Fedarasiyası "Unudulmaz Yaddaş" Xeyriyyə fondunun direktoru,"Qələbə Vərəsələri" Beynəlxalq şurasının Bolqarıstan Respublikası nümayəndəliyinin sədri Skripkaraş Anjela Alekseevna, MDB ölkələri Beynəlxlaq Veteranlar İctimai Birliyinin fəxri üzvü və İcra komitəsinin üzvü Maslyuk Vladimir Solovyeviç və başqaları müharibə veteranlarının sosial müdafiəsi sahəsində Azərbaycanda aparılan işlərin təqdirəlayiq olduğunu vurğulayıblar.

# Gəncə Şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illiyi qeyd olunub



Gəncə şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Təşkilatının 10 mindən çox üzvü var. Bunların 11 nəfəri İkinci Dünya Müharibəsi iştirakçısı, 160 nəfər arxa cəbhədə olan, 296 nəfəri isə müharibədə həlak olanların dul arvadlarıdır. Həmçinin təşkilat da 465 nəfər Qarabağ müharibəsi əlili və 3570 nəfər müharibə veteranı, 3140 nəfər əmək veteranı qeydiyyatdadır.

Gəncə Şəhər Veteranlar Təşkilatın yaranmasının 30 illiyi ilə bağlı tədbir keçirilib. Təşkilat vətənpərvərliyi, eləcə də azərbaycançılıq məfkurəsini gənc nəsil arasında təbliğ edir.

Yubiley tədbirində Gəncə şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov çıxış etmişdirlər. O qeyd etmişdir: "İctimaiyyət arasında da bizim Gəncə şəhər Veteranlar Təşkilatının böyük hörməti var. Ona görə də dövlət tərəfindən mükafatlandırılırıq. Gəncədə bu gün inkişafı görmək olur. Hər bir sakinin maddi sosial vəziyyəti yaxşılaşdırılır. İcra Hakimiyyəti və digər qrumların əməkdaşları öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Biz veteranlar hər cür diqqət və qayğı ilə əhatə olunmuşuq. Gəncə veteranları dövlətin inkişafı üçün əlindən gələni edirlər və gələcəkdə də xoşməramlı fəaliyyətlərini davam etdirəcəklər".

Tədbirdə çıxış edən Gəncə dövlət Universitetinin dosseni Fəxrəddin Useynov Respublika Veteranlar Təşkilatının və gəncə şəhər Veteranlar Təşkilatlarının yaranmasının 30 illiyi münasibəti ilə bütün veteranları təbrik etmişdir. "30 il müddətində veteranlar şərəfli və fəxri yol keçiblər. Bu müddət ərzində bütün ictimai-siyasi işlərdə, gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində veteranlar yaxından iştirak edib. Hər zaman veteranlar vətənin müdafiəsinə hazırdılar. Vətən bizim üçün hər şeydən əziz və müqəddəsdir. Bu gün də tez-tez ön xəttə gedir və orada tədbirlərdə səngərlərdə dayanan oğullarımızı mübariz olmağa vətəni sevməyə səsləyirik"

Digər çıxış edənlər - II Dünya müharibəsi veteranı Tofiq Hüseynov, əmək veteranı Əliyev Nərman, xalq artisti Balayev Məmmədəli, Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun ev muzeyinin direktoru Eldəniz Babayev – Təşkilatın keçdiyi şərəfli yoldan, vətənpərvərliyin təbliğindən və təşkilatın gələcək fəaliyyəti haqqında danışdılar.

Tədbirdə II dünya müharibəsinin iştirakçısı Tofiq Hüseynova vətənpərvərliyin təbliği istiqamətində fəaliyyətinə görə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən verilən medal təqdim olundu.

# Respublika Veteranlar Təşkilatının rəhbərliyi Dünya Veteranları Federasiyasının medalı ilə təltif olunub

18 oktyabr 2018-ci ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illiyi münasibəti ilə "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağrışlar" konfransında iştirak etmək üçün Bakıda işgüzar səfərdə olan Dünya Veteranları Federasiyasının prezidenti, cənab Dan-Viggo Bergtunla Respublika Veteranlar Təşkilatında rəsmi görüş keçirilmişdir.

Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov Dünya Veteranları Federasiyasının prezidenti, cənab Dan-Viggo Bergtunu salamlayaraq, onun ölkəmizə səfər etməsindən və bu görüşün baş tutmasından məmnun qaldığını bildirərək ona Təşkilatın fəaliyyəti, Azərbaycanın İkinci dünya müharibəsində iştirakı, alman faşizmi üzərində qələbəyə mühüm töhfələr verməsi, ölkəmizdə veteranlara dövlət tərəfindən göstərilən qayğı barədə ətraflı məlumatlar çatdırmışdır.





Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov nəinki regionda, bütün dünyada sülhün qorunmasına mühüm töhfələr verən Azərbaycanın bu gün erməni faşizmi ilə qarşılaşması, ərazisinin 20 faizinin Ermənistan Respublikası tərəfindən işğalı olunması, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanması barədə qəbul etdiyi 4 qətnamənin 25 ildən bəri işğalçı dövlət tərəfindən yerinə yetirilməməsi barədə danışmış, bu sahədə dünya veteranlarının məlumatlandırılmasında nüfuzlu təşkilat kimi Federasiyasının mövqeyinin mühüm əhəmiyyət kəsb etməsini vurğulamışdır. O, həmçinin rəsmi qonağa Azərbaycan veteran təşkilatının dünyanın 35-dən çox veteran təşkilatı ilə səmərəli əməkdaşlıq əlaqələrinə malik olmasından, bu əlaqələrin ildən-ilə genişləndirilməsi üçün lazımi iş apardığından danışmışdır. Görüşdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün belə ünsiyyətlərin xüsusi əhəmiyyət kəsb etməsi, Dünya Veteranları Federasiyasının imkanlarından istifadənin qeyd olunan sahədə daha böyük uğurlar əldə edilməsinə yardım göstərəcəyi xüsusi vurğulanmışdır.

Respublika Veteranlar Təşkilatının fəaliyyətini yüksək qiymətləndirən Dan-Viggo Bergtun dünyada sülhün, əmin-amanlığın, sabitliyin təmin olunmasında veteran əməyindən düzgün istifadədə Təşkilatın mühüm rolunu qeyd etmiş, veteranların hüquqlarının qorunması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərildiyi barədə məlumatlardan məmnun qaldığını bildirmişdir. Dan-Viggo Bergtunun fikrincə, həm bu baxımdan, həm də İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin tarixi-mədəni irsinin yaşadılması sahəsində Respublika Veteranlar Təşkilatının fəaliyyəti digər dövlətlərin veteran təşkilatlarına örnəkdir. Bu istiqamətdə təşkilatın sədrinin təcrübəsini və kollektivin fəaliyyətini təqdirəlayiq hesab edən rəsmi qonaq Təşkilatın Federasiya ilə əlaqələrinin sıxlaşdırılması üçün tərəflərin yaxşı başlanğıca malik olduğunu qeyd etmişdir.

Dan-Viggo Bergtun dünyada sülhün, əmin amanlığın, sabitliyin və bu kimi humanist fəaliyyətlərin təbliğ edilməsi istiqamətində səmərəli fəaliyyətlərinə görə Respublika Veteranlar Təşkilatının sədri, general polkovnik Tofiq Ağahüseynovu və Təşkilatın sədr müavini polkovnik Cəlil Xəlilovu Dünya Veteranları Federasiyasının medalı ilə təltif etmişdir.

# Cənub bölgəsində veteranlara göstərilən diqqət və qayğı yüksək səviyyədədir

Lənkəran şəhərində Heydər Əliyev Mərkəzində Lənkəran Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının birgə təşəbbüsü ilə oktyabr 23-də veteranlarla görüş keçirilmişdir. Görüşdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov, Təşkilatın sədr müavini polkovnik Cəlil Xəlilov, Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, yerli qrumların rəhbərləri, eləcə də, Lənkəran,




Masallı, Cəlilabad, Astara və Lerik rayon Veteran Təşkilatlarının sədrləri, veteranlar iştirak etmişlər. Görüşdə veteran təşkilatlarının fəaliyyəti, onların qarşısında duran vəzifələr və yerli icra hakimiyyəti orqanları ilə birgə işin daha da səmərəli təşkilində bu təşkilatlara lazımı köməkliyin göstərilməsi və s. məsələlər müzakirə edilmişdir.

Görüşü açan İcra başçısı Taleh Qaraşov veteranlarla bağlı dövlət səviyyəsində görülən işlərdən geniş danışaraq ölkə Prezidenti tərəfindən onların qaldırdıqları məsələlərin həllinə göstərilən davamlı diqqəti xüsusi vurğulamış, Lənkəran rayonunda da veteranların maddi-məişət şəraitinin yaxşılaşdırılması, onların rayonun ictimai-siyasi həyatında yaxından iştirakına imkanların yaradılması ilə bağlı tədbirlərin görüldüyünü diqqətə çatdırmışdır. İcra başçısı gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələnməsində mühüm rolu olan veteran hərəkatının daha da güclənməsi üçün şəhər İcra hakimiyyətinin bundan sonra da səylərini əsirgəməyəcəyini vurğulamışdır. Respublika Veteranlar Təşkilatının 30 illik yubileyi münasibəti ilə hər bir veteranı təbrik etmiş və təşkilatın bu illər ərzində dövlət siyasətini həyata keçirilməsində, ulu öndər Heydər Əliyev prinsiplərinə sadiq fəaliyyət göstərməsini qeyd etmişdir.



Çıxış edən Respublika Veteranlar Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynov Respublika Veteranlar Təşkilatının fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verdi. Vətənpərvərliyinin təbliği, gənc nəslin azərbaycançılıq ideologiyası ilə tərbiyə edilməsi istiqamətində Təşkilatın üzərinə düşən işin məsuliyyətindən bəhs etmişdir. 30 illik yubiley münasibəti ilə təntənəli mərasim və təşkilatın "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağrışlar" mövzusunda beynəlxalq konfransı yüksək səviyyədə təşkil etməsi Azərbaycan tolerantlığını təbliğ etməsi, yeni faşizm ideologiyası olan erməni işğalçılığının dünya ictimayyətinə tanıdılmasında xüsusi xidmətləri olduğunu bildirmişdir. Lənkəran və ətraf rayonlarda veteranlara göstərilən diqqət və qayğını və yerli veteran təşkilatlarının rolunu müsbət dəyərləndirdi.

Respublika Veteranlar Təşkilatının sədr müvini Cəlil Xəlilov çıxışında qonaqpərvərliyə və bu cür tədbirin təşkilatçılığındakı köməkliyə görə Lənkəran şəhər İcra Hakimiyyətinə minnətdarlığını bildirmişdir. Ölkəmizdə həyata keçirilən quruculuq işləri, Azərbaycanda müasir, güclü Ordunun qurulmasından və Respublika Veteranlar Təşkilatının ölkə həyatında, ictimai-siyasi proseslərdə yaxından iştirakı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. O, Lənkəranın, eləcə də, ətraf rayonların ziyalı və veteranlarının bu işlərdə rolunu yüksək qiymətləndirdi.

Digər çıxış edənlər ölkəmizdə veteranların hər tərəfli diqqət və qayğı ilə əhatə olunduğunu, eləcə də, veteranların gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində fəaliyyətindən bəhs etmişdirlər.

Respublika Veteranlar Təşkilatının sədri general polkovnik Tofiq Ağahüseynov Lənkəran Şəhər icra Hakimiyyətinin başçısı Taleh Qaraşovu "Həzi Aslanov yubiley medalı" və iştirak edən rayon Veteranlar Təşkilatlarının sədrlərini isə Təşkilatın "30 illik yubiley medalı" ilə təltif etdi.

Sonda tədbir iştirakçıları Heydər Əliyev mərkəzinin önündə xatirə şəkli çəkdirdilər.

# Bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir

Hərbi qüdrətini ardıcıl olaraq artıran Azərbaycan Ordusu hazırda dünyanın 50 ən güclü ordusu sırasındadır. Azərbaycan Ordusu ən müasir silahlarla, hərbi texnika və digər müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin və düşünülmüş strateji xəttin nəticəsidir ki, bu gün Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək qabiliyyətindədir. Həmin arsenalın bir hissəsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad zamanı fəxrlə nümayiş etdirildi. Bu gün Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ümumilikdə 1200 adda hərbi təyinatlı məhsul istehsal edir. Ölkəmizin hərbi əməkdaşlıq çərçivəsində əldə etdiyi müasir silah və texniki vasitələr Ordumuzun imkanları barədə aydın təsəvvür yaradır. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə hərbi təyinatlı məhsulların satışı üzrə müqavilələri ilbəil artır.

Bu fikirləri Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov AZƏRTAC-a açıqlamasında söyləyib.

C.Xəlilov vurğulayıb ki, bu il Bakıda iki dəfə möhtəşəm hərbi paradın keçirilməsi, sadəcə, Azərbaycanın hərbi imkanlarının təqdimatı olmadı. Bu, həm də xalqımızın müdafiə potensialının, gücünün nümayiş etdirilməsi ilə düşmənə ötürülən ən təsirli mesaj idi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, "Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir".

Ehtiyatda olan polkovnik bildirib ki, bu hərbi parad həm də xalqımızın öz ordusu ilə qürur duymasının və ona inamının real əsaslara dayanmasının təsdiqinə çevrildi. Belə imkanların yaradılması Azərbaycan Ordusunun döyüş qabiliyyətinin ildən-ilə yüksəldilməsinə, işğal altındakı torpaqlarımızın azad edilməsinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına xidmət edir.

Azadlıq meydanında Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş parad isə Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığını bir daha bütün dünyaya göstərdi. Paradda nümayiş etdirilən yüksək hərbi-texniki hazırlıq, həqiqi peşəkarlıq onu izləyənlərə 100 il əvvəlki ovqatı təkrar yaşatdı.

Respublika Veteranlar Təşkilatının sədr müavini qeyd edib ki, Ordumuzun istənilən vəzifəni icra etməyə qadir olduğunu düşmən də yaxşı bilir. Hərbi paradın ən mühüm nəticəsi Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının xalqımıza və dünyaya çatdırılan mesajında tam dolğunluğu ilə ifadə edilib.

"Ordumuzun ən müasir silah və texnika ilə təchiz edilməsi nəticəsində bu gün Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki imkanları ən yüksək səviyyədədir. Bu il Bakıda "ADEX-2018" üçüncü müdafiə sənayesi sərgisində bir çox aparıcı şirkətlərin uğurla nümayiş etdirdikləri müasir məhsulları bu imkanların getdikcə artdığını göstərir. Hazırda hərbi texnika istehsalında uğurlar əldə edən Azərbaycan hərbi potensialını yüksəltməkdə yalnız bir məqsəd güdür, Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək. Əlbəttə, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində güclənən Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri iki il əvvəl Aprel döyüşlərində və bu il Naxçıvanda qazandıqları qələbələri bir daha təkrarlayaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəklər. Vətənpərvər Azərbaycan əsgəri həmin günü yaxınlaşdırmaq üçün hər cür fədakarlığa qadirdir, - deyə Cəlil Xəlilov vurğulayıb.

*AZƏRTAC*

# Polis veteranlarının köməyi ilə üç mindən artıq cinayətin üstü açılıb

Polis veteranları cinayətkarlıqla mübarizəyə layiqli töhfələrini verirlər. Onlar narkotiklərin fəsadları ilə bağlı yeniyetmə və gənclər arasında təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə yerli polis şöbələrinin rəhbərliyi və aidiyyəti xidmətlərin əməkdaşları ilə birgə təhsil müəssisələrində, habelə vətəndaşlarla görüşlər keçirərək hüquqi mövzularda maarifləndirmə işlərini davam etdirirlər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari ilin doqquz ayı ərzində veteranların köməyi ilə respublika üzrə 3247 cinayətin açılması təmin edilib.

Ötən müddətdə polis veteranları şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasına, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasına, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasına yönəlmiş tədbirlərdə də fəal iştirak ediblər. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi də daim diqqət mərkəzində saxlanılıb.

Bu dövrdə veteranlar 2610 dəfə respublikanın müxtəlif təhsil müəssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxışlar edib, tövsiyələrini veriblər.

Səmərəli və məqsədyönlü fəaliyyətlərinə görə polis veteranlarından bir qrupu Daxili İşlər Nazirliyinin rəhbərliyi və Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən mükafatlandırılıb.

*AZƏRTAC*

# Elxan Xəzərin uğurlu seçimi



Döyüşçü-şair, Daxili Qoşunların veteranı, pedaqoq Elxan Xəzər növbəti kitabı ilə oxucuların görüşünə gəlib. Müəllif bu kitabında iki pyes və üç hekayəsini təqdim edir. Elxan Xəzər oxuculara bir çox şeir və poemaların müəllifi kimi daha çox tanış olsa da, zaman-zaman müxtəlif ədəbi janrlara müraciət etməkdən çəkinmir və etiraf etmək lazımdır ki, yaradıcılığın bu sahələrində də uğurlar qazanır, oxucunu düşünməyə vadar edir. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, Elxan Xəzərin bütün yaradıcılığında oxunaqlıq, aktuallıq, dil rəvanlığı, dilimizin zənginlik xəzinəsindən sona qədər yararlanmaq bacarığı, yenilikçilik və digər mühüm xüsusiyyətlərlə yanaşı, məhz oxucusunu düşünməyə vadaretmə bacarığı diqqəti cəlb edən əsas amillərdən biridir.

Müəllif bu kitabından əvvəl də nəsr əsərlərinin topladığı bir neçə kitabını çap etdirmişdir. Bu kitablarda müxtəlif mövzular öz əksini tapsa da, başlıca leytmotiv xalqımızın düçar olduğu bəlaları yaradan səbəblər, bu bəlalardan xilas yolları, milli birlik, vətənpərvərlik və əsasən də erməni faşizminin ifşası olmaqla, xüsusən yaxın tariximizdə baş verən hadisələrin bədii təsviridir.

"Nərgiz" nəşriyyatı tərəfindən sadə və maraqlı tərtibatla çap edilmiş iki pyesdən və üç hekayədən ibarət "Uğursuz seçim" kitabı da Azərbaycan tarixinin təlatümlü bir mərhələsini özündə əks etdirir.

Kitabdakı ilk pyes "Yolgöstərən" adlanır. Bu pyesdə Azərbaycan maarifçiliyinin öncülləri, milli mətbuatın banisi Həsən bəy Zərdabinin, onun həyat yoldaşı və məsləkdaşı Hənifə xanımın, Nəcəf bəy Vəzirovun, Seyid Əzim Şirvaninin, Nəriman Nərimanovun xalqın nicatını maariflənməkdə görmələri, bu yolda elə xilas etməyə çalışdıqları xalqın içərisindən olan qaraguruhun onlara qarşı göstərdiyi cahil müqavimətdən bəhs olunur. Pyesdə xüsusilə Nərimanov və Zərdabi arasında xalqın gələcəyi barədə gedən dialoq maraqlı alınmışdır. Məlumdur ki, həmin dövrdə rus imperiyası sosialist inqilabının təlatümləri ilə çalxalanırdı. Nərimanov da xalqın gələcəyini məhz "sosial ədalət", "xalqlar bərabərliyi" şüarları ilə silahlanmış sosialist inqilabının qələbəsində görürdü. Dialoqun sonunda Nərimanov Həsən bəydən "Bəs nə edək, yolumuz nədir?" - deyə soruşur. Həsən bəy Zərdabi isə bu yolun milli oyanışda, maariflənməkdə və nəhayət, Qafqaz türklərinin öz müstəqil dövlətini yaratmasında görür. Məhz bu epiziodda tarixi əhəmiyyətli bir məsələ də - Qafqaz türklərinin öz müstəqil dövlətini yaratmaq arzuları dilə gətirilir.




"Uğursuz seçim" pyesi də XX əsrin əvvəllərində baş verən hadisələrə - sosialist inqilabının qələbəsindən sonra xalqımızın başına gətirilən müsibətlərə həsr olunub. Burada da müəllifin seçdiyi çox dinamik süjet xəttinin mərhələ-mərhələ açılmasında N.Nərimanov əsas aparıcı obrazdır. Artıq onun ideoloji prinsiplərə bağlı optimistliyi real həyatın acı həqiqətlərinin diqtəsi ilə tərəddüdlərlə əvəz olunmağa başlayır. O, Bakıya toplaşmış yırtıcı xislətli bolşevik və onların içərisinə sızmış daşnak emissarlarla mübarizə aparmağa çalışır. Bu əsər ayrıca bir araşdırma predmetidir. Əsərin ərsəyə gəlməsində müəllifin apardığı çox ciddi tarixi araşdırmaların rolu var. Diqqətçəkən məqamlardan biri odur ki, siyasi proseslərin əks olunduğu əsərdə bədii ifadə tərzi öz zənginliyini uğurla tapır. Ümid edirəm ki, beş pərdədən ibarət olan, sosialist inqilabından sonrakı ağır bir dövrü özündə uğurla əks etdirən bu əsər gələcəkdə teatr səhnələrində də öz yerini tapacaqdır.

Kitaba müəllifin üç hekayəsi-"Qiymətli qiymət", "Fürsətgirlər" və "Miras" daxil edilmişdir. "Qiymətli qiymət" hekayəsi yazıçı-pedaqoq Mir Cəlalın pedaqoji və ictimai fəaliyyətinə yönəlib, onun tələbələrinə göstərdiyi qayğıya və həmişə ədaləti müdafiə etməsinə həsr olunub. "Fürsətgirlər" hekayəsində sosialist inqilabının yaratdığı "fürsət"dən istifadə edən ermənilərin Azərbaycanda törətdiyi planlı soyqırımdan bəhs olunur. "Miras" isə ailədaxili və ictimai proseslərə həsr olunmuş maraqlı bir hekayədir.

Əminəm ki, kitab oxucuların diqqətini çəkəcək, seviləcək. Elxan Xəzəri məhsuldar yaradıcılığındakı bu uğurlu seçim münasibətilə təbrik edirəm, ona yeni yaradıcılıq uğurları arzulayıram!

Səfxan Bayramov
DİN-in Daxili Qoşunlarının
Veteranlar Şurasının üzvü

AZƏRBAYCAN VETERANI

# Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi

**Layihənin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması yolunda canından keçmiş, Vətən, xalq qarşısında əvəzsiz xidmətləri olan şəhidlərimizin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ olunmasıdır**

## "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsinin ilk tədbiri keçirilib

Sentyabrın 28-də Respublika Veteranlar Təşkilatı (RVT) Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində ilk tədbir keçirib.

Tədbirin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, vətən yolunda canından keçmiş və əvəzsiz xidmətləri olan şəxslərin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ edilməsidir.

Azərbaycanın dövlət himninin səslənməsi ilə başlayan tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə RVT-nin sədr müavini, polkovnik Cəlil Xəlilov layihə barəsində, eləcə də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında təşkilatın fəaliyyəti, keçirilən tədbirlər haqqında məlumat verib, bu sahədə veteranların üzərinə düşən vəzifələrdən danışıb.




C.Xəlilov deyib: "Bu gün biz vətənpərvərliyin təbliğ olunması istiqamətində həyata keçirilən layihənin ilk tədbirinə toplaşmışıq. Şəhidlərimizə həsr olunmuş belə layihələr hər bir azərbaycanlı üçün çox böyük əhəmiyyət kəsb edir. Şəhidlər Vətəni yaşatmaq naminə qanlı döyüşlərə atılaraq babalarımızın bizlərə əmanəti olan bu doğma yurdu canları, qanları bahasına müdafiə ediblər. Onlar düşmənə ağır zərbələr vuraraq Azərbaycanın qəhrəmanlıq, mərdlik tarixinə yeni, silinməz səhifələr əlavə ediblər. Hər birimiz onlara olan borcumuzu yerinə yetirməli olduğumuzu bir an da unutmamalıyıq. Xüsusilə gənclər onların hər birinin həyat yolu və döyüş zamanı göstərdikləri qəhrəmanlıq nümunələri barədə məlumatlandırılmalı, Vətəni, xalqı müdafiə etməkdə hər cür fədakarlığa hazır olmalıdırlar.



Təşkilat belə tədbirləri yalnız layihələrlə əlaqədar deyil, il ərzində müvafiq Tədbirlər Planı əsasında müntəzəm olaraq keçirir. Bu çərçivədə ölkənin dörd regionunda əsasən gənclərin iştirakı ilə silsilə tədbirlər keçirilib. Bu layihəyə əsasən Qarabağ, eyni zamanda, Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş gənclərin həyat və döyüş yolundan söhbət açılacaq. Layihə çərçivəsində görüşlərimiz davam edəcək, ali və orta məktəblərdə belə tədbirlər keçiriləcək. Bundan əlavə şəhidlərimizə həsr olunmuş bir kitabça da hazırlamışıq".

Tədbirdə Respublika Veteranlar Təşkilatının əməkdaşları çıxış edərək şəhidlərimizin xatirəsinin Azərbaycan xalqının yaddaşında daim yaşayacağını bildiriblər. Qeyd edilib ki, qəhrəmanlarımızın həyat və döyüş yolunu təbliği yeniyetmə və gənclərimizin maariflənməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Sonda iştirakçılara qəhrəman şəhidlərimizə həsr edilmiş maarifləndirici bukletlər paylanıb, xatirə şəkili çəkilib.

## Respublika Veteranlar Təşkilatı "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində növbəti tədbir Azərbaycan Dillər Universitetində keçirib

Respublika Veteranlar Təşkilatı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsini icrası çərçivəsində növbəti tədbirini Xarici Dillər Universitetində keçirmişdir. Tədbirin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, vətən yolunda canından keçmiş şəhidlərimizin, vətən qarşısında əvəzsiz xidmətləri olan şəxslərin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ edilməsidir.

Tədbiri giriş sözü ilə Universitetin təlim tərbiyə üzrə prorektor Sərraf Hüseynov açmışdır. O gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasının əhəmiyyətindən və bu istiqamətdə Universitetin fəaliyyəti haqda məlumat vermişdir.





Lahiyə rəhbərinin köməkçisi Şəhla Qarayeva lahiyə barəsində eləcə də, keçirilən tədbirlər məlumat vermişdir.

Çıxış edən polkovnik Adil Haqverdiyev gəncləri vətənpərvər olmağa, onları Azərbaycanın adına layiq insanlar kimi yetişməyə çağırmışdır. O, həmçinin bu işdə veteranların və Respublika Veteranlar Təşkilatının üzərinə düşən vəzifələrdən danışmışdır.

Tədbirdə Respublika Veteranlar Təşkilatının digər əməkdaşları, müəllim və tələbələr çıxış edərək şəhidlərimizin xatirəsinin Azərbaycan xalqının yaddaşında daim yaşadacağını, yeniyetmə və gənclərimizin onların həyat və döyüş yolunu öyrənmələrinin mühüm əhəmiyyət kəsb etməsini qeyd etmiş, yeni nəslin üzərlərinə düşən vəzifənin məsuliyyətlərini dərindən dərk etdiklərinə, torpaqlarımızın erməni işğalından azad olunması üçün hər cür fədakarlığa hazır olacaqlarına əminlik ifadə etmişlər.

Tədbirin sonunda gənclərlə xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN VETERANI

# Yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir

24 oktyabr 2018-ci ildə Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində növbəti tədbiri baş tutmuşdur.

İkinci dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, gənclərin, ziyalıların, ictimaiyyətin və medianın nümayəndələrinin iştirak etdiyi tədbir Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır.

Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müvini, layihənin rəhbəri polkovnik Cəlil Xəlilov layihə çərçivəsində həyata keçirilmiş tədbirlər, görülmüş işlər barəsində məlumat verərək, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında Təşkilatın geniş fəaliyyətindən danışmışdır. O, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasının bu gün 20 faizdən artıq ərazisi Ermənistan Respublikasının işğalı altında olan Azərbaycan Respublikası üçün mühüm əhəmiyyət kəsb etməsini vurğulayaraq, belə tədbirlərin daimi xarakter daşımasını və geniş auditoriyanı əhatə etməsini zəruri hesab etmişdir.






Tədbirdə həmçinin layihə çərçivəsidə hazırlanıb çap olunmuş, beş nəfər Qarabağ və Aprel şəhidinin döyüş və həyat yolundan bəhs edən "Torpağı Vətən edənlər" kitabçasının təqdimatı olmuşdur. Layihə və kitabçanın müzakirəsi çərçivəsində Respublika Veteranlar Təşkilatının şöbə müdirləri, ehtiyatda olan polkovniklər Adil Haqverdiyev və Lətif Babayev (kitabça mətninin müəllifi),Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitunun şöbə müdiri, fiologiya elmlər doktoru Bədirxan Əhmədov, Qarabağ müharibəsi veteranı, jurnalist Elçin Müseyboğlu, Əfqanıstan müharibəsi veteranı, polkovnik Elşad Şabanov, şəhid ailələrinin və ictimaiyyətin nümayəndələri, veteranlar çıxış edərək yeniyetmə və gənclərin şəhidlərimizin həyat və döyüş yolunu öyrənmələrinin mühüm əhəmiyyət kəsb etdiyini bildirmiş, Vətən, torpaq yolunda həyatlarını qurban vermiş insanların xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğunu və onların əbədi həyat qazandıqlarını qeyd etmişlər.

Tədbirin sonunda kitabça tədbir iştirakçılarına paylanılmış, veteranlar gənclərlə xatirə şəkli çəkdirmişlər.

# Layihə çərçicəsində yekun - hesabat tədbiri

29 oktyabr 2018-ci ildə Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində yekun-hesabat tədbiri baş tutmuşdur. Tədbirin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması yolunda canından keçmiş, Vətən, xalq qarşısında əvəzsiz xidmətləri olan şəhidlərimizin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ olunmasıdır.

İkinci dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, gənclərin, ziyalıların, ictimaiyyətin və medianın nümayəndələrinin iştirak etdiyi tədbir Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır.



Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müvini, layihənin rəhbəri polkovnik Cəlil Xəlilov gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bu cür layihələrin mütəmadi olaraq həyata keçirilməsinin mühüm əhəmiyyət kəsb etməsini vurğulayaraq, belə tədbirlərin daimi xarakter daşımasını və geniş auditoriyanı əhatə etməsini zəruri olduğunu qeyd etdi. C.Xəlilov Respublika Veteranlar Təşkilatının və onun şəhər, rayon stuktur bölmələrinin yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində səmərəli fəaliyyətindən, bununla bağlı müntəzəm olaraq tədbirlərin keçirilməsindən danışaraq, diqqəti Azərbaycanın bu gün Ermənistan Respublikasının işğalı altında olan ərazilərinin azad olunmasında bu işlərin daha yüksək səviyyəyə qaldırılmasının mühüm əhəmiyyət daşıdığına yönəltdi.

Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev 29 oktyabr Türkiyə Cümhuriyyətinin qurulmasının 95 illiyi münasibəti ilə tədbir iştirakçılarını və bütün türk xalqını Təşkilat rəhbərliyi və veteranlar adından təbrik edərək, Türkiyə-Azərbaycan qardaşlığının tarixi, bütün dövrlərdə, xüsusilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu dövrdə Türkiyənin Azərbaycana göstərdiyi qardaş köməyindən danışdı. L.Babayev layihə çərçivəsində həyata keçirilmiş tədbirlər, görülmüş işlər, o cümlədən şəhidlərə həsr olunmuş "Torpağı Vətən edənlər" kitabçasının və məlumat xarakterli xüsusi bukletin buraxılması barədə geniş məlumat verərək Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının bu cür layihələr maliyyə ayırmasını təqdirəlayiq hal saydı. O, bildirdi ki, 20 faiz ərazisi düşmən işğalı altında olan bir ölkənin yaşından asılı olmayaraq bütün insanları vətənpərvər olmalıdırlar. Ancaq tərbiyə olunmağa, vətənpərvərlik ruhunda yetişdirilməyə gəlincə, başlıca hədəf yeniyetmə və gənclərdir. Azərbaycanın körpəsindən tutmuş tələbəsinə, bu gün ölkə həyatının müxtəlif sahələrində çalışan, müəyyən təcrübəyə malik gəncinə qədər hər kəs vətənpərvər olmasa biz Ermənistan Respublikasının işğalı altında olan ərazilərimizi azad edə bilmərik. O, xüsusi olaraq



vurğulamışdır ki, Vətənə, xalqa, dövlətə sədaqət, torpağa bağlılıq, onu qorumağa hər an hazır olmaq Təşkilat yeniyetmə və gənclərə məhz bu keyfiyyətləri aşılamağa çalışır. 2016-cı ilin Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan gəncliyi öz atalarının qəhrəmanlıq, mərdlik, vətənpərvərlik yolunu davam etdirməyə, düşmənə sarsıdıcı zərbələr vurmağa daim hazırdır.

Tədbirdə çıxış edən layihənin eksperti Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Adil Haqverdiyev, İkinci Dünya müharibəsi veteranı, Nəsimi rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov, "Şəhid ailələrinə qayğı cəmiyyəti" təşkilatının Nizami rayon Təşkilatının sədri Nizami Abbasov, veteran şair Zakir Əliyev və başqaları çıxış edərək yeniyetmə və gənclər arasında vətənpərvərlik mövzusunda bu tipli layihələrin keçirilməsinin vacibliyini diqqətə çatdırdılar.

Tədbirdə eyni zamanda, 3 ay müddətində həyata keçirilmiş "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsinin fəaliyyət planına uyğun olaraq görülmüş işlər barədə müzakirələr aparıldı, fikirlər səsləndirildi, təkliflər verildi.

Tədbirin sonunda 95 yaşı tamam olan İkinci Dünya müharibəsi veteranı, Nəsimi rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov Respublika Veteranlar Təşkilatının təsis etdiyi Mehmandarov yubiley medalı ilə təltif olundu.

AZƏRBAYCAN VETERANI

# Rodez şəhərində azərbaycanlı əsgərin xatirəsi yad edilib

Azərbaycan dövləti İkinci Dünya müharibəsində vətəndən uzaqda başqa millətlərin nümayəndələri ilə Fransanın azadlığı uğrunda çiyin-çiyinə vuruşaraq həlak olmuş azərbaycanlı döyüşçüləri unutmur,



onların xatirəsini daima yad edir.

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Aveyron departamentinin Rodez şəhərinin qəbiristanlığında dəfn olunmuş azərbaycanlı döyüşçülərin xatirəsini yad etmək üçün şəhər qəbiristanlığında olub.

Səfir İkinci Dünya müharibəsində ölkəmizin qələbənin əldə olunmasındakı rolundan, Fransa Müqavimət Hərəkatında iştirak edən azərbaycanlı əsgərlərdən danışıb.

Səfirliyimiz adından Fransanın azadlığı uğrunda döyüşmüş gənc əsgər Mişel Hüseynovun qəbri üzərinə əklil qoyularaq, İkinci Dünya müharibəsində həlak olan azərbaycanlı əsgərlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qəbiristanlıqda çox sayda naməlum əsgərin qəbri yerləşən məkanda Azərbaycan əsgərlərinin xatirəsinə abidə ucaldılıb. Abidənin üzərində "Fransa uğrunda həlak olan azərbaycanlı döyüşçülərin xatirəsinə" sözləri həkk edilib.

Qeyd edək ki, yerli mətbuat və televiziya kanallarının jurnalistləri anım mərasimində olublar.

# Nasist Almaniyasını nüvə silahından məhrum edən norveçli diversant 99 yaşında dünyasını dəyişib



İkinci Dünya müharibəsi dövründə Hitler koalisiyasına qarşı mübarizə aparan norveçli İoahim Ryonneberq 99 yaşında dünyasını dəyişib.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, 1943-cü ildə ağır su istehsalının məhv edilməsi üzrə "Qannersayd" əməliyyatına komandanlıq edən Ryonneberq 1919-cu ildə doğulub. Adolf Hitler Norveçi işğal edəndə o, 1940-cı ildə Böyük Britaniyaya qaçır və müqavimət hərəkatına qoşulur. Hərbi hazırlığı keçib Norveçə qayıdan Ryonneberq nasistlərə qarşı bir neçə xüsusi əməliyyatda iştirak edir.

1943-cü ildə ona Norveçin Vemork şəhərində ağır suyun istehsalı üzrə "Norsk Hydro" şirkətinin zavodunun partladılması üzrə əməliyyatın hazırlanması tapşırığı verilir. Müttəfiqlər ehtiyat edirdilər ki, nasistlər nüvə silahının hazırlanması üçün ağır sudan istifadə edə bilərdilər və buna görə də onun istehsalını məhv etməyə qərar verirlər. 1942-ci ildə birinci diversiya cəhdi uğursuz alınır.



1943-cü ildə Ryonneberq və onun qrupu Vemorkda müvəffəqiyyətli əməliyyat həyata keçirir. Onlar paraşütlərlə düşərək xizəklərdə zavoda çatırlar və müəssisəni partladırlar. Qrup xilas olmağa və neytral ölkə olan İsveçə keçməyə nail olur. Bununla "Qannersayd" əməliyyatı uğurla başa çatır.

Norveçli diversant daha sonra danışırdı ki, o, son anda fitil ipini qısaltmağa qərar verir. Partlayışın bir neçə dəqiqə sonra baş verməsi isə diversiyanın qarşısının alınmasına gətirib çıxara bilərdi.

# *Böyük Vətən müharibəsinin azərbaycanlı iştirakçıları ilə bağlı yeni sayt istifadəyə veriləcək*

Böyük Vətən müharibəsində itkin düşmüş və həlak olmuş azərbaycanlıların axtarışı məqsədilə yaxın günlərdə "qələbə.az" saytı istifadəyə veriləcək. Ölkəmiz üçün yeni olan bu layihə Böyük Vətən müharibəsinin itkin düşmüş azərbaycanlı iştirakçılarının axtarılmasının, onların adlarının əbədiləşdirilməsinin, xalqımızın öz tarixinə və hər bir vətəndaşına sahib çıxmasının əyani sübutudur. Tariximizin böyük bir hissəsini özündə əks etdirəcək və ictimaiyyətin istifadəsinə veriləcək sayt azərbaycanlıların iştirak etdikləri digər müharibələrdə də itkin düşmüş və həlak olmuş şəxslər haqqında məlumatlarla mütəmadi qaydada zənginləşdiriləcək. Saytın baş redaktoru və təsisçisi kinorejissor, Mədəniyyət Nazirliyinin sektor müdiri Cəmil Quliyevdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov məlumat verib.

C.Xəlilov bildirib ki, Respublika Veteranlar Təşkilatı itkin düşmüş müharibə iştirakçılarının axtarışı, onlarla bağlı məlumatların üzə çıxarılması ilə daim məşğul olur. Bu iş MDB məkanı ilə yanaşı, bir sıra Avropa ölkələrinin müvafiq axtarış qrupları vasitəsilə müntəzəm surətdə həyata keçirilir. Çünki İkinci Dünya müharibəsinin başa çatmasından 73 ildən çox vaxt ötməsinə baxmayaraq, müxtəlif cəbhələrdə döyüşmüş minlərlə həmvətənimizin taleyi hələ də naməlum olaraq qalır.

"Ümumiyyətlə, "qələbə.az" məlumat-axtarış saytı bu sahədə fəaliyyətin intensivləşdirilməsinə imkan verəcək. Saytın yaxın vaxtlarda fəaliyyətə başlaması üçün Respublika Veteranlar Təşkilatı bu layihəyə yaxından kömək göstərəcək və əməkdaşlığı davam etdirəcək", - deyə C.Xəlilov vurğulayıb.

O, həmçinin qeyd edib ki, Respublika Veteranları Təşkilatında qurumun Rəyasət Heyətinin üzvləri, ziyalılar və veteranların iştirakı ilə saytın ilkin müzakirəsi keçirilib, təklifləri dinlənilib. Müzakirələr nəticəsində Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü Cəmil Quliyevin başçılıq etdiyi qrup tərəfindən yaradılan saytın tərtibatı, orada yer alacaq bölmələr, informasiya bazasının qurulması haqqında yekun qərar qəbul olunub.

# Əsir düşərgəsində qaz kameralarını inkar edən vəkil cəzalandırılıb

Avstriyanın Vels şəhərində Vəkillər Kollegiyası İkinci Dünya müharibəsində bu ölkədə yerləşən ən böyük əsir düşərgəsində qaz kameralarının mövcud olmasını inkar edən bir vəkili 10 min avro məbləğində cərimələyib.

AZƏRTAC xəbər verir ki, 2016-cı ildə nasist çıxışlarına görə məhkəməyə verilən sağçı-radikal bir şəxsi müdafiə edən vəkil yekun nitqində Avstriyanın ən böyük hərbi əsir düşərgəsi olmuş "Mauthauzen"də qaz kameralarının mövcudluğunu və orada krematoriyanın fəaliyyət göstərdiyini inkar edib. O, qeyd edib ki, bu gün "Mauthauzen"də nümayiş etdirilən qaz kameraları müharibə başa çatdıqdan sonra tikilib və ümumiyyətlə, həmin ərazidə qaz kameralarının olması belə şübhə altındadır.

"Nasional-sosializm düşüncəsinin təbliğ edilməsinin qadağan olunması haqqında" Qanuna əsasən vəkilin çıxışının ardından Vels



Prokurorluğu onun barəsində cinayət işi açıb. Vəkil mandatının maraqlarını qorumaq üçün çıxışında yanlışlığa yol verdiyini qeyd etsə də, həm əyalət məhkəməsində, həm də Konstitusiya Məhkəməsində onun şikayəti təmin olunmayıb.

Xatırladaq ki, yaradıldığı 1938-ci ildən İkinci Dünya müharibəsinin sonunadək "Mauthauzen" əsir düşərgəsində müxtəlif Avropa ölkələrindən 200 mindən artıq hərbi əsir işgəncələrə məruz qalıb, onların təxminən yarısı (90 min nəfər) isə alman nasistləri tərəfindən məhv edilib. Rəsmi məlumata görə, müharibə illərində "Mauthauzen"də 81 nəfər azərbaycanlı əsir qətlə yetirilib.

Azərbaycan səfirliyinin araşdırmaları nəticəsində "Mauthauzen" və onun tabeliyindəki digər əsir düşərgələrində 300-dək soydaşımızın əsir olduğu müəyyən edilib. Azərbaycanın Avstriyadakı səfirliyinin təşəbbüsü və birbaşa dəstəyi ilə 2001-ci ildə "Mauthauzen", 2011-ci ildə isə "Ebenzee" əsir düşərgələrinin ərazisində azərbaycanlı əsirlərin xatirəsini əbədiləşdirən abidələr qoyulub.

*Elgün Niftəli*
*AZƏRTAC-ın xüsusi müxbiri, Vyana*

**Baş redaktor**
Ülvi İBRAHİMLİ

Məsul katib
Şəhla QARAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

"Azərbaycan Veteranı" qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34
**Əlaqə telefonu:** 012 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.
Qiyməti 1 manat 20 qəpik
Tiraj: 1290